**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**
**XƏZƏR UNİVERSİTETİ**

**Dillər və ədəbiyyatlar departamenti**

# “DÜNYA ƏDƏBİYYATI - 1”

**(Antik dövr)**

**fənninin**

**P R O Q R A M I**

Ali təhsilin bakalavriatura hazırlığı üçün

***Humanitar, təhsil və sosial elmlər fakültəsinin***
***Elmi Şurasının* 08.10.2019-cu il tarixli 02 *№-li qərarı ilə təsdiq edilmişdir***

**Bakı-2019**

**Tərtib edənlər:** **Qardaşxan Əzizxanlı**
Filologiya üzrə fəlsəfə doktoru

**Ülvi Babasoy**
Filologiya üzrə fəlsəfə doktoru

**Elmi redaktor:** **Dilbər Zeynalova,**
Filologiya üzrə fəlsəfə doktoru,
dosent

**Rəyçilər:** **Seyfəddin Rzasoy**
Filologiya elmləri doktoru, professor

**Rüstəm Lazımov**
Filologiya üzrə fəlsəfə doktoru

**“Azərbaycan dili və ədəbiyyatı müəllimliyi”, “Filologiya (Azərbaycan dili və ədəbiyyatı)” ixtisaslarının bakalavriat təhsil səviyyəsi üçün hazırlanmış**

**" Dünya ədəbiyyatı-1” fənninin**

# İŞÇİ TƏDRİS PROQRAMI

## İzahat vərəqəsi

**Fənnin məqsədi:** “Dünya ədəbiyyatı-1” fənnində Antik yunan ədəbiyyatı və Qədim Şərq ədəbiyyatı tədris olunur. Dünya ədəbiyyatı fənni filologiya ixtisası üzrə tədris olunan əsas fənlərdən biridir. Fənnin məqsədi dünya ədəbiyyatında baş vermiş əsas prosesləri nəzəri və xronoloji ardıcıllıqla izləməkdir. Bu iki qitənin ədəbiyyatı, mədəniyyəti, dövlətçilik ənənələri həm bir-birindən kəskin şəkildə fərqlənmiş, həm də bir-birinə təsir etmişdir. Qədim Şərq ədəbiyyatında ədəbiyyat, fəlsəfə və din arasında sıx bir əlaqə vardır. Antik yunan ədəbiyyatı isə miflər və çoxtanrılıq kontekstində təşəkkül tapmışdır. Fənnin tədrisində məqsəd həm Şərq, həm də Qərb ədəbiyyatları tarixının tam məbzərəsi ilə təhsilalanları tanış etmək, onlarınbBir-birindən əsaslı şəkildə fərqləndiyini, həm də bir-birinə ciddi şəkildə təsir etdiyini, bir-birindən qidalandığını göstərməkdir. “Dünya ədəbiyatı-1” fənnində Qədim Şərq və Qədim Qərbin bədii təfəkkürü arasındakı oxşar və fərqli cəhətlər müqayisəli ədəbiyyat kontektsində tədris olunur.

**Gözlənilən təlim nəticələri:** Kursun sonunda tələbə və dinləyicilərin aşağıdakı **bilik və bacarıqları** əldə etməsi gözlənilir:

1. Qədim Şərq və Qərb mədəniyyəti, dünyagörüşü haqda geniş elmi informasiya əldə edilir, tarixi-siyasi hadisələrin və dini inancların ədəbiyyatda bədii təzahür metodları mənimsənilir.
2. Qədim dövrə aid ədəbi nümunələr mütaliə edilir və bu nümunələr əsasında ibtidai insanların təfəkkür tərzi, dünyagörüşü qavranılır.
3. Dünya ədəbiyyatının qaynaqları öyrənilir.
4. Tələbələrin bədii-estetik zövqləri inkişaf etdirilir.
5. İrəli sürülən fikir və mülahizələri elmi-nəzəri baxımdan əsaslandırılır.

**Mövzuların tədris saatları üzrə bölgüsü**

| № | Mövzuların adları | Cəmi | O cümlədən | |
|---|---|---|---|---|
| | | | Mühazirə | Məşğələ |
| 1. | Qədim Şərq ədəbiyyatı tarixi<br>İbtidai mədəniyyət və incəsənət.<br>Şumer - Akkad ədəbiyyatı. "Gilqamış (Bilqamıs) haqqında dastan | 4 | 2 | 2 |
| 2. | Qədim Çin ədəbiyyatı. Qədim Hind ədəbiyyatı | 4 | 2 | 2 |
| 3. | Qədim İran (fars) ədəbiyyatı. Qədim yəhudi ədəbiyyatı. Qədim Ərəb ədəbiyyatı | 4 | 2 | 2 |
| 4. | Antik (yunan-Roma) ədəbiyyatı tarixi<br>Qədim Yunan mifologiyası. Yunan şifahi xalq ədəbiyyatı | 4 | 2 | 2 |
| 5. | Ən qədim ədəbi abidələr. Homer eposu. | 4 | 2 | 2 |
| 6. | Qədim Yunanıstanda didaktik epos. Antik dövrdə yunan ədəbiyyatının inkişafı | 4 | 2 | 2 |
| 7. | Yunan ədəbiyyatının attik dövrü (m. ö. V- IV əsrlər). Dramın inkişafı | 4 | 2 | 2 |
| 8. | Sofokl - V əsr Afinasının ikinci böyük faciə şairi kimi | 4 | 2 | 2 |
| 9. | Afianın üçüncü böyük faciə şairi Evripidin yaradıcılığı.<br>Aristofan «məzhəkənin atası» kimi | 4 | 2 | 2 |
| 10. | M.ö. V-IV əsrlərdə nəsr. Elm. Fəlsəfə. Natiqlik sənəti. Tarixşünaslıq | 4 | 2 | 2 |
| 11. | Ellinizm dövründə yunan ədəbiyyatı. Ellinizm cəmiyyəti və mədəniyyəti | 4 | 2 | 2 |
| 12. | Qədim yunan ədəbiyyatı Roma imperiyası dövründə. Qədim Roma ədəbiyyatı | 4 | 2 | 2 |
| 13. | Roma ədəbiyyatının çiçəklənməsi və süqutu dövrü | 4 | 2 | 2 |
| 14. | Miladın I və II əsrində ədəbiyyat. Roma ədəbiyyatında "gümüş dövr" | 4 | 2 | 2 |
| 15. | Roma ədəbiyyatının son dövrü | 4 | 2 | 2 |

## Mövzu 1

## Qədim Şərq ədəbiyyatı tarixi

## İbtidai mədəniyyət və incəsənət.

## Şumer - Akkad ədəbiyyatı. “Gilqamış (Bilqamıs) haqqında dastan

İbtidai mədəniyyət və incəsənət. Qədim Şərq mədəniyyəti arxaik və ibtidai mədəniyyətin davamı kimi. Qədim Şərq xalqlarının əsatiri.

Şumer - Akkad ədəbiyyatı. İkiçayarasında (Mesopotamiya - Beynəlnəhreyn; Dəclə və Fərat çaylarının arası) sinifli cəmiyyətin yaranması. “Gilqamış (Bilqamıs) haqqında dastan (Hər şeyi bilən adamın dastanı)”. Şumer problemi. S.N. Kramer şumer abidələrinin naşiri və tədqiqatçısı kimi.

Qədim Misir ədəbiyyatı. Əsatirlər. Nağıllar. Nəsr. Poeziya.

Misir ədəbiyyatı haqqında ümumi məlumat (Hafiz İbrahim /1871-1932/, Əhməd Şövqi /1868-1932/ və b.).

Qədim Orta Şərq və Anadolu ədəbiyyatı.

## Mövzu 2

## Qədim Çin ədəbiyyatı. Qədim Hind ədəbiyyatı

Qədim Çin ədəbiyyatı. Lao-tszı. Konfusi (Kun-tszı). Men- tszı, Çjuan- tszı, Tsyuy Yuan, Xan Fey-tszı haqqında ümumi məlumat. Nəsr. Fəlsəfi nəsr. Tarixi nəsr və hekayətlər. Poeziya və zərif söz sənəti.

Çin ədəbiyyatı haqqında ümumi məlumat ( Lo Quançjun /1330-1400/, Qao Sinszyan /1940/ və b.).

Qədim Hind (Harappa) mədəniyyəti. Qədim Hind mifologiyası. Hind folklor nümunələri. Ən qədim qəhrəmanlıq dastanları- “Mahabharata”, “Ramayana”. “Riqveda” (“Himnlər kitabı”). Brəhmən ədəbiyyatı. Budda ədəbiyyatı. Kalidasanın dramları. «Kəlilə və Dimnə» qədim hind abidəsi kimi.

Hind ədəbiyyatı haqqında ümumi məlumat (Klassik və müasir Hind ədəbiyyatllarının qarşılıqlı əlaqələri. Robindranat Taqorun /1861-1941/ həyatı. Taqorun böyük şair, nasir, dramaturq və publisist kimi şöhrət tapması. «Bibxa sahili», «Fəlakət», «Ev və dünya» və s. nəsr əsərlərində doğma xalqının gələcəyinə inam və məhəbbət. Taqor ictimai xadim kimi).

## Mövzu 3

## Qədim İran (fars) ədəbiyyatı. Qədim yəhudi ədəbiyyatı. Qədim Ərəb ədəbiyyatı

Qədim İran (fars) ədəbiyyatı. Protoiran mədəniyyəti. Elam mədəniyyəti və ədəbiyyatı. Manna, Midiya. “Avesta”. Soqda, Parfiya, Mami, Pəhləvi ədəbiyyatı. «Qabusnamə» X-XI əsrlərdə İran feodal həyatının öyrənmək, o zamankı iqtisadi həyatı tədqiq etmək, elm və mədəniyyət səviyyəsi ilə tanış

olmaq və s. üçün dəyərli əsər kimi. Firdovsinin yaradıcılığında «Şahnamə» və onun istifadə mənbələri. İbn Sina (980-1037).

İran ədəbiyyatı haqqında ümumi məlumat (M.Şəhriyar, S.Behrəngi, S.Rüşdi və b. timsalında).

Qədim yəhudi ədəbiyyatı. "Mişna", "Tora", "Talmud". "Bibliya".

Yəhudi ədəbiyyatı haqqında ümumi məlumat ( Şolom Aleyxem, Əli Amir, Şmuel Yosef Aqnon və b).

Qədim Ərəb ədəbiyyatı**.** Cahiliyyə dövrü. İslam dövrü ərəb ədəbiyyatı.

Ərəb ədəbiyyatı haqqında ümumi məlumat ( Nəcib Məhfuz, Adonis və b.).

**Mövzu 4**

**Antik (yunan-Roma) ədəbiyyatı tarixi**

**Qədim Yunan mifologiyası. Yunan şifahi xalq ədəbiyyatı**

Yunan-Roma ədəbiyyatına giriş. Antik ədəbiyyat haqqında anlayış.

Yunan ədəbiyyatının arxaik dövrünəqədərki dövr. Qədim yunan ədəbiyyatının arxaik dövrü. Yazılı ədəbiyyataqədərki dövr.

Əsatir qədim yunan ədəbiyyatının məzmunu kimi. Mifoloji dünyagörüş dünyanı dərkin xüsusi mərhələsi kimi. Allahlar və qəhrəmanlar haqqında əsatirlər. Qəhrəmanlıq nəğmələri xalq qəhrəmanlıq eposunun əsası kimi. Qəhrəmanlıq dastanları.

**Mövzu 5**

**Ən qədim ədəbi abidələr. Homer eposu**.

Aedlər və rapsodlar. «İliada» və «Odisseya» dastanları. Dastanların folklor əsası, onların qələmə alınması. Troya müharibəsi haqqında rəvayət, onun tarixi və mifoloji ünsürləri. Mifologiyadan poeziyaya keçid.

Homer «İliada» və «Odisseya» dastanlarının əfsanəvi yaradıcısıdır. Ədəbi inkişafın Homer məsələsi. Homer dastanlarında əks olunan ictimai inkişaf mərhələləri. Poemalarda bədii təfəkkürün spesifikası.

**Mövzu 6**

**Qədim Yunanıstanda didaktik epos. Antik dövrdə yunan ədəbiyyatının inkişafı**

Hesiod. "Zəhmətlər və günlər" poeması ilk yunan (həmçinin Avropa) didaktik eposu kimi. Polislərin (şəhər-dövlətlərin) yaranması və çiçəklənməsi. Afina quldarlıq demokratiyasının təsdiqi. M.ö. VII-VI əsrlərdə yunan cəmiyyəti və mədəniyyəti.

Monodik və xor lirikası. Elegiya və yamb. Ədəbi nəsrin yaranması.

## Mövzu 7

## Yunan ədəbiyyatının attik dövrü (m. ö. V- IV əsrlər). Dramın inkişafı

Yunan mərasimlərində dram ünsürləri. Antik faciənin mənşəyi və strukturu. Faciə dram növü kimi. Afina teatrı.

"Faciə atası" Esxilin yaradıcılığı. "Oresteya" trilogiyası. Evmenidlər. "Zəncirlənmiş Prometey" faciəsi. "Prometey haqqında əsatir" və onun Esxil tərəfindən təfsiri.

## Mövzu 8

## Sofokl - V əsr Afinasının ikinci böyük faciə şairi kimi

Sofokl. Afina quldarlıq demokratiyasının çiçəklənməsi və tənəzzülünün başlanması dövrünün dramaturqu kimi. «Tiran Edip» faciəsi. İlahi tale və insanın sərbəst iradəsi məsələsi: bilmədən edilmiş cinayət və şüurlu şəkildə qəbul olunmuş qərar. «Tiran Edip» faciəsinin estetik əhəmiyyəti. "Edip Kolonda", "Antiqona", "Elektra".

Aristotelin faciənin nəzəriyyəsi ilə bağlı fikirləri.

## Mövzu 9

## Afianın üçüncü böyük faciə şairi Evripidin yaradıcılığı. Aristofan «məzhəkənin atası» kimi

Yunan ictimai fikrində yaranmış yeni cərəyanlar Evripid yaradıcılığında. Evripidin ənənəvi dinə və mifologiyaya tənqidi münasibəti. "Medeya", "Alkesta" faciələri. "Fedra", "Elektra" faciələrinin məzmunu.

Qədim yunan komediyası. Aristotelin komediyanın nəzəriyyəsi ilə bağlı fikirləri. Aristofanın yaradıcılığı. "Atlılar" komediyası. Aristofan «məzhəkənin atası» kimi. Əsərlərinin kəskin tendensiyalı xarakteri.

## Mövzu 10

## M.ö. V-IV əsrlərdə nəsr. Elm. Fəlsəfə. Natiqlik sənəti. Tarixşünaslıq

Herodot. Fukidid. Fəlsəfi dialoq. Poeziya nəzəriyyəsi.

Platonun idealist fəlsəfəsi, ədəbiyyatşünaslıq problemləri.

Aristotel. Onun «Poetikası». «Poetika» antik dram qanunauyğunluqlarını ümumiləşdirən əsər kimi. «Poetika» və klassisizm. İncəsənətin mahiyyəti haqqında Aristotelin fikirləri. Katarsis dram sənətinin əsas qanunauyğunluğu kimi. Aristotel faciə haqqında. Aristotel janrların ideyası haqqında. Aristotel və Nizami. Aristotelin «Poetika» əsəri və müasir ədəbiyyatşünaslıq.

**Mövzu-11**

**Ellinizm dövründə yunan ədəbiyyatı. Ellinizm cəmiyyəti və mədəniyyəti**

Attika dövründə ədəbiyyatşünaslıq. Yeni Attik komediya. Menandr.

İsgəndəriyyə poeziyası. Elinizm nəsri.

**Mövzu 12**

**Qədim yunan ədəbiyyatı Roma imperiyası dövründə. Qədim Roma ədəbiyyatı**

Romada yunan nümunələri əsasında ədəbiyyatın yaranmasına qədərki dövr. (e.ə. 240-cı ilə qədər).

Plutarx. Lukian. Təhkiyəvi nəsr. Roman. Poeziya. Qədim yunan məhəbbət romanı. Respublika dövrü Roma ədəbiyyatı. Erkən Roma ədəbiyyatı. Xalq ədəbiyyatı. Roma ədəbiyyatının "qızıl əsri". (Plavt, Terensi,Katon, Siseron, Katull, Lukresi və onların yaradıcılıqları).

Roma quldarlıq cəmiyyətinin tarixi Aralıq dənizi sahilində yerləşən ölkələrin qədim tarixinin ayrılmaz hissəi kimi. Onun «yüksək mərhələdə» yunan quldarlıq cəmiyətinin inkişaf mərhələlərini təkrar etməsi. Romada ictimai və mədəni həyatın özünəməxsusluğu.

Roma və yunan mədəniyyətinin əlaqəsi: fəlsəfi, etik-estetik, ideya-mənəvi, problem-tematik, forma-üslubi əlaqələr. Yunan mifologiyası obrazlı bədii priyom kimi.

Plavt Roma plebeyinin dramaturqu kimi. «Cəmiyyət və insan» mövzusu. İnsan həyatında fərdi və ictimai amillərin tənasübü. Fərdi amilin ictimai amildən ayrılması. Komik xarakterin qurulması. Qəhrəman tipləri. Qəhrəmanın daxili hisslərinin onun xarici hərəkətləri ilə ifadəsi. «Xəzinə» («Küp») məzhəkəsi. İctimai antaqonizmin əsərdə inkiası.

**Mövzu 13**

**Roma ədəbiyyatının çiçəklənməsi və süqutu dövrü**

İmperiya dövrü Roma ədəbiyyatı. "Avqust əsri". Vergili Maron, Horasi Flakk, Ovidi Nazon, Tit Livi və onların yaradıcılıqları.

Mesenat dərnəyi. Vergili. İlk əsərləri - «Bukoliklər» və «Georgiklər». Bu əsərlərin Hesiodun və Feokritin əsərləri ilə əlaqəsi. «Eneida» poeması ədəbi qəhrəmanlıq eposu kimi. Əsərin ideya-siyasi və etik-estetik əsasları. Dünya xalqlarının inkişafında Romanın tarixi vəzifəsi. Eney-Roma şücaətinin idealı kimi.

Horatsi. Roma cəmiyyətinin zidiyyətlərinin Horatsinin poeziyasında inikası: «Roma sülhünün yaradıcısı». Avqustun tərənnümü və respublika prinsiplərinə sədaqət. Epikurizm fəlsəfəsi. «Tez ötüb keçən zaman» obrazı.

## Mövzu 14

## Miladın I və II əsrində ədəbiyyat. Roma ədəbiyyatında "gümüş dövr"

Roma ədəbiyyatında "gümüş dövr"ün nümayəndələri: Seneka, Petroni, Lukan, Fedr.

Lussi Anney Senekanın yaradıcılığı. Senekanın "Medeya" və "Fedra" faciəsi.

Antik təmsil. Ezop təmsilinin ənənələri. Təmsil süjetlərində əbədi və gündəlik mövzuların inikası. Alleqorik tipikləşdirmə, satirik istiqamət. Antik təmsillərin süjetlərinin Avropa və Azərbaycan ədəbiyyatlarında işlənməsi.

## Mövzu 15

## Roma ədəbiyyatının son dövrü

Marsial, Yuvenall və Tassitin yaradıcılığı. Roma ədəbiyyatının son dövrü. Apuley və onun «Metamorfozlar» ("Qızıl eşşək") romanı. Romanın süjet baxımından yunan povestləri ilə bağlılığı. Həyatın dini-fəlsəfi dərki, romanın əxlaqi-mənəvi ideyası. Fantastikanın, folklor süjetinin və realist təsvirlərin romanda çulğaşması. «Amur və Psixeya» haqqında nağıl. Təhkiyənin ritorik üslubu. Xalq poeziyasının üslubi ünsürləri.

## Ədəbiyyat siyahısı

**Əsas dərsliklər:**

1.Nağıyev C, Qədim Şərq ədəbiyyatı tarixi, Asiya n., B., 2009;

2.Qədim Şərq ədəbiyyatı (tərcüməçilər: İ. Vəliyev, N.Səfərov, E.Ağaoğlu)."AE",B.,1999;

3.Qədim Şərq ədəbiyyatı müntəxabatı (tərcüməçilər: İ. Vəliyev, N.Səfərov, E.Ağaoğlu), "Şərq-Qərb", B, 2007 ("AE", B.,1999 nəşri əsasında təkrar çap edilib);

4.Tronski İ.M., Antik ədəbiyyat tarixi."Elm və təhsil", B., 2011 (Tərc.C.Nağıyev, E.Kərimli)

5.Antik ədəbiyyat antologiyası. Bakı: "Şərq-Qərb", 2010, 824 s.

6. Aristotel., Poetika. Bakı: "Şərq-Qərb", 2006, 120 s.

7.Roma ədəbiyyatı müntəxabatı (t. e. prof. Əli Sultanlı). Azərbaycan univers.nəşr.,B., 1959.

**Əlavə dərsliklər:**

**1**.Nağıyev C., Qədim Şərq ədəbiyyatı tarixi, B., 2004;

2.Nağıyev C., Qədim Şərq ədəbiyyatı, B.,2007

3.Novruzov T., Qədim Şərq ədəbiyyatı tarixi, B., 2005;

4. Novruzov T., Dünya ədəbiyyatı tarixi 1-ci h., (Qədim Şərq ədəbiyyatı), B., ADPU, 2011;

5. Sultanlı Ə., Antik ədəbiyyat tarixi, B., 1958;

6. Novruzov T., Qədim yunan və Roma ədəbiyyatı, B., 2005;

7.Novruzov T.,Qədim dünya ədəbiyyatı tarixi. B., ADPU 2003;

8.Novruzov T, Paşayeva N., Antik Yunanıstanda ədəbiyyat nəzəriyyəsi."Təfəkkür" Universtetinin elmi əsərləri (1-ci kitab), B, 1996.

9.Hüseynov İ.,Əfəndiyeva N., Qədim Dünya mədəniyyəti, “Mars-print” NPM, B., 2009

**Mənbələr:**

2. Qolosovker Y.E., Mifin məntiqi. BSU “Kitab aləmi”, B., 2006;

3.Şəfizadə B., Azərbaycan ədəbiyyatı tarixi (ən qədim dövrlər). “Adiloğlu” nəşr., B., 2003;

4.Skirbek Q., Gilye N., Fəlsəfə tarixi, “Zəkioğlu” nəşriyyatı,B., 2007;

5.Əskər R., Qudatğu bilig, Elm, B.,2003;

6.“Elladanın qəhrəmanları”, “Öndər” nəşriyyatı, B., 2004.

7. Homer, İlliada. B,1979;

8. Homer, Odisseya. B,1977 (və başqaları).